# “Nə qaldı”

***Şair və folklorşünas kimi tanınan İlham Qəhrəmanın tərtibatında məşhur el sənətkarı Aşıq Alının "Nə qaldı" kitabı "Qanun" nəşrlər evində nəfis şəkildə çapdan çıxıb.***

***Kitabda Aşıq Alının fərqli mənbələrdən götürülmüş, aşıq ədəbiyyatının ən müxtəlif janrlarında olan 300 şeiri toplanıb. Əldə olan mətnlərə tənqidi yanaşan tərtibatçı çoxsaylı deyim və sözlərə, dini-mifoloji məfhumlara aydınlıq gətirmiş, cinasları yenidən qurub şərh etmişdir.***

***Demək olar ki, İlham Qəhrəman iki ilə yaxın müddətdə toplayıb tərtib etdiyi kitabda 750-dən çox ətək şərhi vermişdir. Bu kitabla Aşıq Alı irsi ilk dəfədir ki, oxuculara tam və anlaşıqlı şəkildə çatdırılır. Kitab folklorşünaslar, aspirantlar, tələbələr, orta məktəblərin ədəbiyyat müəllimləri, aşıq şeiri həvəskarları və geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Kitab İlham Qəhrəmanın "Könül işi" adlı böyük məqaləsi ilə açılır. Daha sonra şeir nümunələri janrından və ənənə ardıcıllığından asılı olaraq 14 bölmədə verilmişdir. Şeir adları da aşıq sənətinin qədim qaydalarına uyğun olaraq şeirin birinci beytinin qafiyyə və ya rədifə uyğun adlandırılmışdır. "Nə qaldı" kitabının redaktoru Əsəd Cahangir, rəyçi şair Telman Hüseyn (Telman Hüseyn Aşıq Alının bacısı Pərinin vaxtilə Vediyə gəlin getmiş nəvəsi Şəkərin nəvəsidir), məsləhətçisi Məhərrəm Qasımlıdır. Korrektor işini Əyyar Tahirov və Nigar İlhamqızı görmüşdür.***




***400 səhifəlik kitab İlham Qəhrəmanın şəxsi vəsaiti ilə çap olunmuşdur. 500 sayla çap olunmuş kitab ticarət şəbəkələrində satışda olmayacaq. Kitabı əldə etmək üçün tərtibçiyə müraciət etmək lazımdır.***

Ədalət.- 2020.- 30 yanvar. S. 7.